## *TƏNQİD VƏ BİBLİOQRAFİYA*




### Ölməz sənətkara əzəmətli abidə

Azərbaycan xalqının dünya mədəniyyəti tarixinə bəxş etdiyi çoxsaylı mütəfəkkirlərdən biri də zəngin bədii yaradıcılığı, möhtəşəm fəlsəfəsi, mürəkkəb həyat yolu və ömrünün layiq olmadığı acı sonluğu ilə daim mədəni dünyanın xatirində qalacaq Hüseyn Caviddir. H. Cavid yaradıcılığının müxtəlif sahələrinə dair sanballı tədqiqatların olmasına baxmayaraq (M. Cəfər, T.Əfəndiyev, M.Əlioğlu, İ.Həbibbəyli, Q.Məmmədli, A.Turan və b.), bu qüdrətli sənətkarın həyatının, yaradıcılığının, ideyalarının öyrənilməsi, təhlil edilməsi və müasir gəncliyə çatdırılması sahəsində hiss olunacaq boşluq hələ də mövcuddur. H. Cavid irsinə böyük önəm verən Ümummilli lider Heydər Əliyev demişdi ki: "Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır…".

Pedaqoji fəaliyyətlə məşğul olan, xalqın gələcək taleyinin gənc nəslin təlim-tərbiyəsindən çox asılı olduğunu aydın dərk edən H. Cavid həm də maarifçi pedaqoq idi. Böyük mütəfəkkirin təkcə aşağıdakı ideyası onu Azərbaycan pedaqoji fikir nümayəndələri sırasına daxil etməyə tam əsas verərdi: "Bizə yalnız məktəb lazımdır. Bütün inqilabi mədəniyyə həp məktəb məhsuludur" (Hüseyn Cavid və məktəb. s. 31). Bu baxımdan, H. Cavidin yaradıcılıq fəaliyyətinə dair hər bir araşdırma gərəklidir. "Hüseyn Cavid və məktəb" adlı monoqrafiya ilə oxucularla görüşə gələn pedaqogika üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllimi Kamal Camalovun əsəri həmişə aktual olaraq qalacaqdır.

144 səhifədən ibarət olan bu monoqrafiya akademik İsa Həbibbəylinin ön söz əvəzi yazdığı "Ciddi elmi hesabatlara doğru" maraq dolu fikirləri ilə öz əksini tapır və əsər giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Monoqrafiyanın girişində mövzunun aktuallığı əsaslandırılır. Yüksək mədəniyyətə malik, vətənpərvər, humanist, işgüzar, dərin düşüncəli pedaqoq, görkəmli ictimai və mədəniyyət xadimi Hüseyn Cavidin pedaqoji ideyalarının tədqiqi zərurətinin müstəqil dövlətimizin milli-mədəni irsə qayğıkeş münasibətindən, gənc nəsli məktəb və pedaqoji fikir tarixi ilə yaxından tanış etməyin əhəmiyyətindən irəli gəldiyi göstərilir.

Monoqrafiyanın birinci fəsli "Hüseyn Cavidin həyatı, yaradıcılığı və müəllimlik

fəaliyyəti" adlanır və üç yarımfəsildən ibarətdir. İlk yarımfəsildə Hüseyn Cavidin həyatı, yaradıcılığı və maarifçilik fəaliyyətindən bəhs edilir. Kamal müəllim gələcəkdə böyük mütəfəkkir olacaq Hüseynin əvvəlcə mollaxanada təhsil almasını və məhz burada ərəb və fars dillərini öyrəndiyini göstərir. Sonra isə müəllimlər müəllimi Məhəmməd Tağı Sidqinin açdığı məktəbdə oxumasından və "Məktəbi-Tərbiyə"nin Hüseyn Cavidin gələcək inkişafında bir bünövrə rolu oynamasından danışır. Tədqatçı Kamal Camalov Hüseyn Cavidin pedaqoji fikirlərinin formalaşmasında onun aldığı təhsilin rolunu qiymətləndirir.

Bu yarımfəsildə mollaxanada və "Məktəbi-Tərbiyə"də aldığı təhsildən sonra Hüseyn Cavidin 1898-1903-cü illərdə İranda mədrəsə təhsili alması, 1903-cü ildə ilk dəfə, 1905-ci ildə ikinci dəfə İstanbula gedərək ali təhsil almaq arzusunu həyata keçirməsi faktlarla göstərilir. Hüseyn Cavidin tələbəlik illəri haqda məlumat ən çox onun dostlarına, qohumlarına və müəllimlərinə yazdığı məktubların təhlilindən əldə edilir. Dosent Kamal Camalovun axtarışları, ümumiləşdirmələri təqdirəlayiqdir.

Birinci fəslin üçüncü yarımfəslində Hüseyn Cavidin müəllimlik fəaliyyəti və yaradıcılığında müəllim-tərbiyəçi problemindən bəhs olunur. Oxuyuruq ki, Hüseyn Cavid ilk müəllimlik fəaliyyətinə 1909-cu ildə Naxçıvan şəhərinin "Xeyriyyə" məktəbindən başlamışdır. 1910-cu ildə yaxın dostu, məsləkdaşı A.Şaiqə yazdığı məktubda isə "İttifaq" məktəbinə təyin olunduğunu qeyd edir. 1912-ci ildə Abdulla Surun (1877-1912) Gəncədə açdığı yeni tipli "ruhani" məktəbində məhdud bir zaman içində ruhani müəllimi işləmişdir. 1912-ci ildən 1915-ci ilə qədər isə Tiflisdə yaxın dostu F.Köçərlinin köməyi ilə "Aliyevo uçenie" məktəbində müəllim işləmişdir. 1915-ci ildə Hüseyn Cavid Bakıda "Şəfa" məktəbində müəllimlik fəaliyyətini davam etdirmiş, 1918-ci ildə isə yenə dogma diyarı sayılan Naxçıvana dönmüş və burada "Ruşdiyyə" məktəbinə və Rəşidbəy Əfəndiyevin Naxçıvanda açdığı "Rəşidbəy kursları"na müəllim dəvət olunmuşdur. 1919-cu ilin sentyabr ayından Hüseyn Cavid Naxçıvandan Bakıya köçüb Bakı məktəblərində; 1921-1922-ci illərdə Darülmüəllimində və 1927-1933-cü illərdə isə Azərbaycan Dövlət Teatr Texnikumunda ədəbiyyat dərslərini tədris etmişdir. Kamal müəllim Hüseyn Cavidin cəmiyyətin inkişafında müəllimin rolunu yüksək qiymətləndirdiyini, müəllim hazırlığı haqqında onun pedaqoji baxımdan bu günlərlə də səsləşən ideyalarını bacarıqla toplamış, təhlil etmiş, sonda isə H.Cavidin müəllim və onun hazırlığı haqda fikirlərini ümumiləşdirmiş, müddəalar şəklində təqdim etmişdir.

Bunu da qeyd etmək yerinə düşərdi ki, Kamal müəllim ilk dəfə olaraq Hüseyn Cavidin atası axund Abdulla ilə maarifçi şair Seyid Əzim Şirvaninin dostluq əlaqələrindən də bəhs etmişdir. Seyid Əzim Şirvani Hüseyn Cavidin atasının səsini Davud Peyğəmbərin səsinə bənzədir. Və əlavə olaraq qeyd edir ki, əgər Həzrəti Əlinin Zülfüqar qılıncı iki haça dilliliyi ilə aləmə səs salmışdısa, Hacı Molla Abdullanın da "şur", "humayın" üstündə oxuduğu avazlı, məlahətli səsi bütün kainata səs salmışdır (Bax: Hüseyn Cavid və məktəb. s.11).

Monoqrafiyanın ikinci fəsli Hüseyn Cavidin maarifçilik ideyaları adlanır. Burada, hər şeydən əvvəl, romantik şairin cəhalət və mövhumatın aradan qaldırılması, dünyanın inkişaf etmiş xalqları sırasında dura bilmək üçün təhsil almağın, müasir tipli, dərslərin yeni üsulla tədris edildiyi məktəblərin zəruriliyi haqda fikirlərinin elmi-pedaqoji aspektdən təhlili diqqəti cəlb edir. Hüseyn Cavidin xüsusilə təhsilin hamı üçün olması, həm də icbari xarakter daşıması, savadlı müəllim kadrlarının hazırlanması, məktəblərin pedaqoji və gigiyenik tələblərə cavab verən tədris binalarında yerləşməsi barədə fikirlərinin sadəcə təsvir olunması ilə kifayətlənməyib, onları pedaqoji təhlil süzgəcindən keçirmək də əməkdar müəllim Kamal Camalovun elmi-pedaqoji səriştəliyindən xəbər verir.

Kamal Camalovun fəslin ikinci yarımfəslini Hüseyn Cavidin ana dili və onun tədrisi haqqında fikirlərinə həsr etməsi, həmin dövrün ədəbi dil mühiti və Cavid məfkurəsi ilə elmi baxımdan tanışlığın ifadəsi kimi qiymətləndirmək istəyirəm. Çünki Cavidin başına gələn müsibətlərin əsil bəhanələrindən biri onun əsərlərinin dili idi. Fikrimcə, Kamal müəllim Hüseyn Cavidin ana dilinin gözəllikləri, üstünlükləri, bu dildə tədrisin əhəmiyyəti haqqında ideyalarının əsil ruhunu tutmuşdur,

Fəslin üçüncü yarımfəsli vətəndaş şair Hüseyn Cavidin ictimai-siyasi görüşlərinə həsr edilib. Dərin təfəkkürə, iti ağıla, dünya və yaradılış haqqında zəngin biliklərə malik olan Hüseyn Cavidin dünyagörüşünün ziddiyyətli olduğunu iddia edənlərin sayı çoxdur. Cavid fəlsəfəsini dərk etmək o qədər də asan deyildir. Fikrimcə, tədqiqatçı-alim Kamal Camalov Hüseyn Cavidin ictimai-siyasi görüşlərinin yaşadığı dövrün sosial mühiti, aldığı təhsilin səviyyəsi və özünün təfəkkür qabiliyyətinin təsiri altında formalaşdığını söyləməkdə haqlıdır.

"Hüseyn Cavid və məktəb" adlı monoqrafiyanın müvəffəqiyyətli hissələrindən biri də Hüseyn Cavidin milli-mənəvi tərbiyə ideyaları adlanan üçüncü fəslidir. Tədqiqatçı Kamal Camalov bu fəsildə əxlaq tərbiyəsi, əmək tərbiyəsi, böyüyən nəslin vətənpərvərlik tərbiyəsi, uşaqlarda humanizm-dostluq-yoldaşlıq tərbiyəsi haqda fikirlərindən müasir pedaqoji mühitdə müvəffəqiyyətlə istifadə oluna biləcəyini inandırıcı arqumentlərlə əsaslandırır. Dosent Kamal Camalov haqlı olaraq Hüseyn Cavidin tərbiyəyə dair fikirlərində vətənpərvərlik ideyasının aparıcı yer tutduğu qənaətinə gəlmişdir.

"Hüseyn Cavid və məktəb" adlı monoqrafiyada Hüseyn Cavidin "Ana", "Maral", "Şeyx Sənan", "Knyaz", "Peyğəmbər", "Afət", "Şeyda", "Topal Teymur" və s. əsərlərindəki mənəvi ədalətsizliyin təsviri, əxlaqi keyfiyyətlərin təbliği, vətənpərvərlik, humanizm, əmək tərbiyəsi, ailə tərbiyəsi ilə bağlı fikirlər sistemləşdirilir və müasir məktəb təcrübəsində istifadə imkanları üzə çıxarılır. Xüsusilə, ailə tərbiyəsinin xüsusiyyətləri, ailədə ananın müstəsna rolu barədə Cavid ideyaları Kamal müəllim tərəfindən düzgün ümumiləşdirilmişdir. Ümumilikdə Kamal Camalov Hüseyn Cavidin yaşayıb fəaliyyət göstərdiyi mühiti, ictimai-siyasi baxışları və yaradıcılığının ideya mənbələrini, müəllim hazırlığı haqqında olan fikirlərini, təlimin mahiyyəti və məzmunu ilə bağlı ideyalarını, ana dilinin tədrisinin əhəmiyyəti haqqındakı fikirlərini, vətənpərvərlik, əmək tərbiyəsi ilə bağlı görüşlərini, uşaq şeirlərinin elmi pedaqoji dəyərlərini aydınlaşdırmış, həmin bədii örnəklərin Azərbaycan pedaqoji fikir tarixində rolunu dəqiqləşdirmişdir.

Monoqrafiyanın nəticə hissəsi də əsərin məzmununu 10 ümumiləşdirilmiş müddəa ilə tam əhatə edir. Ümumiyyətlə, haqqında yüksək fikirdə olduğum bu əsər və ya monoqrafiya aydın, səlis, oxunaqlı bir dildə yazılmışdır.

Yekun olaraq qeyd edim ki, həyatının mənasını xalqına, Vətəninə təmənnasız xidmətdə görən, Hüseyn Cavidin yaradıcılığına aşiq olan, əməkdar müəllim, Kamal Camalov da həyatının mənasını millilikdə, Vətənə layiqincə xidmətdə, gəncləri vətənpərvərlik ruhda tərbiyə etməkdə və tələbələrini dərin və hərtərəfli biliklərlə silahlandırmaqda görür.

Azərbaycan Respublikasının əməkdar müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalova yeni-yeni yaradıcılıq uğurları və pedaqoji fəaliyyətində nailiyyətlər arzulayıram.

**Məmməd KAZIMOV**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**